2011-ci ilin Azərbaycan Respublikası Prezidenti tərəfindən "Turizm ili" və BMT tərəfindən beynəlxalq "Meşə ili" elan edilməsi ilə əlaqədar olaraq meşələrin qorunması və davamlı istifadəsi sahəsində məktəblilərin ekoloji maarifləndirilməsini genişləndirmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. Respublika ümumtəhsil məktəbləri şagirdləri arasında "Meşələri qoruyaq" mövzusunda Respublika ekoloji müsabiqəsi keçirilsin.

2. Respublika müsabiqəsinin əsasnaməsi və təşkilat komitəsi təsdiq olunsun (əlavə olunur).

3. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, Bakı şəhəri üzrə Təhsil idarəsinin və Gəncə şəhər Təhsil idarələrinin, rayon, şəhər təhsil şöbələrinin müdirləri müsabiqənin əsasnaməsinin tələblərinə uyğun icranı təmin etsinlər.

4. Tərbiyə və məktəbdənkənar müəssisələr şöbəsi (A. İbrahimov) müsabiqənin təşkili ilə əlaqədar lazımi təşkilati işləri həyata keçirsin.

5. Müsabiqə qaliblərinin mükafatlandırılması və diplomların hazırlanması ilə bağlı xərclərin ödənilməsi Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik mərkəzinin 2011-ci ilə təsdiq olunmuş xərclər smetasının müvafiq xərc yarımmaddələrində nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilsin.

6. İctimaiyyətlə əlaqə şöbəsi (B. Hüseynzadə) əmrin və əlavələrin "Azərbaycan müəllimi" qəzetində və nazirliyin veb səhifəsində dərc olunmasını təmin etsin.

7. Ümumi şöbə (X. Fərəcov) əmr və əlavələrin çoxaldılaraq yerlərə göndərilməsini təmin etsin.

8. Əmrin icrasına nəzarət nazir müavini Q.Novruzova həvalə edilsin.

***Misir MƏRDANOV***

***Azərbaycan Respublikasının təhsil naziri***
***25 noyabr 2011-ci il***

***№1859***

---

**Əlavə**

Gənc meşəçilərin Respublika müsabiqəsinin Əsasnaməsi